**Azərbaycan Respublikası**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**1990-cı il 20 Yanvar faciəsinin 19-cu ildönümü ilə əlaqədar**

# BƏYANATI

Tarix boyu Azərbaycan çox ağır sınaqlardan çıxmış, xalqımıza qarşı qanlı cinayətlər, terror aktları, soyqırımlar törədilmiş, əzəli torpaqlarımız zəbt edilmişdir. Soydaşlarımız zaman-zaman etnik təmizləmə siyasətinə məruz qalmış, öz tarixi torpaqlarından deportasiya olunmuşlar.

1990-cı ilin 20 Yanvar günündə Azərbaycan xalqının üzləşdiyi qanlı faciə misilsiz vəhşilik nümunəsi kimi sovet imperiyasının bədnam tarixinə düşmüş, bəşər tarixinə isə dövlətin öz vətəndaşlarına qarşı törətdiyi ən qatı cinayətlərdən biri kimi həkk olunmuşdur.

Bu müdhiş hadisənin təməli SSRİ-də "yenidənqurma" siyasətinin həyata keçirildiyi vaxtdan qoyulmuşdur. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyası rəhbərlərinin göstərişi ilə xüsusi hərbi birləşmələr və zirehli texnika Bakı və Sumqayıt şəhərlərinə, habelə Azərbaycanın bir çox rayonuna yeridilmiş, dinc əhaliyə xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə divan tutulmuşdu. Öz torpaqlarının müdafiəsi naminə mübarizəyə qalxmış yüzlərlə silahsız insan, o cümlədən yaşlılar, qadınlar və uşaqlar qətlə yetirilmiş, yaralanmış, itkin düşmüş, inzibati binalara, yaşayış evlərinə, nəqliyyat vasitələrinə ciddi zərər vurulmuşdur.

SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, Dövlət Təhlükəsizlik Komitəsinin birgə həyata keçirdiyi əməliyyat nəticəsində bir neçə istiqamətdə Bakıya daxil olan silahlı qoşunlar təkcə paytaxtda 130-dan artıq mülki şəxsi amansızcasına öldürmüş, 600-dən çox adam yaralanmış, ölçüyəgəlməz dağıntılar törədilmişdir. O qanlı şənbə gecəsi yüzlərlə evə fəlakət gətirmişdir. Hücum zamanı qadağan edilmiş güllələrdən istifadə olunmuş, hətta yaralıları çıxaran təcili tibb yardımı maşınlarına və həkimlərə atəş açılmış, neçə tibb işçisi yaralanmış, şəhid olmuşdu.

Sovet imperiyasının "beynəlmiləlçiliyinin" əsl mahiyyətini açan 20 yanvar qırğını xalqımızın müstəqillik mübarizəsinə qəsd idi. Bu qanlı hadisə Azərbaycan xalqına qarşı mütəşəkkil terror siyasətinin başlanğıcı, silsilə terror aktları sırasında ən ağır zərbələrdən biri olmuşdur. Sovet hakimiyyəti bu cinayətlə Ermənistanın azğınlaşmış siyasi qüvvələrinə dəstək vermiş, nəticədə Azərbaycana qarşı həyata keçirilən uzunmüddətli erməni təcavüzü, etnik təmizləmə, Kərkicahan, Qaradağlı və Xocalı soyqırımları baş vermiş, torpaqlarımızın 20 faizi zəbt edilmiş, Ermənistan ərazisindən, Dağlıq Qarabağ və ətraf rayonlardan əhali zorla qovulmuş, soydaşlarımızın bir milyon nəfəri, yəni hər səkkizindən biri öz doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişdir.

İnsanlığa qarşı yönəlmiş bu qanlı aksiya sovet rejiminin qəddarlığını, saxtalığını və artıq iflasa uğradığını bütün dünyaya bəyan etdi, xalqımızın müstəqillik və azadlıq uğrunda mübarizlik əzminin möhkəmlənməsinə güclü təkan verdi. Azərbaycanda öz hökmranlığını təsdiqləmək niyyətilə qırğın törədən imperiya əks-nəticə ilə üzləşdi.

Həmin faciəyə siyasi-hüquqi qiyməti ilk olaraq ümummilli lider Heydər Əliyev verdi. O, hələ 21 yanvar 1990-cı il tarixdə bu dəhşətli hadisəyə münasibətini bildirən

kəskin bəyanatla çıxış etmişdir. Bakıda törədilən qırğınlara siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını tələb edən ulu öndər şəhidlərin xatirəsini əbədiləşdirmək üçün həmin tarixi Milli Matəm günü kimi elan etmişdir. Onun təşəbbüsü ilə ilk dəfə olaraq Milli Məclis tərəfindən bu hadisəyə rəsmi siyasi və hüquqi qiymət verilmiş, həmin faciənin Azərbaycan xalqının azadlıq və müstəqillik mübarizəsinə divan tutmaq üçün törədildiyi bəyan edilmişdir.

Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm abidə inşa edilmiş, onların uyuduğu torpaq soydaşlarımız üçün müqəddəs ibadətgaha çevrilmişdir. Qanlı hadisənin qurbanlarına, onların ailə üzvlərinə dövlət tərəfindən daim qayğı göstərilir. 20 Yanvar təcavüzü zamanı yüksək vətənpərvərlik və hünər nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına ölkə Prezidentinin müvafiq Fərmanına əsasən, «20 Yanvar şəhidi» fəxri adı verilmiş, «1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında» 2003-cü 15 yanvar tarixli Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinətin məbləği artırılmışdır. Dövlət Sosial Müdafiə Fondunun illik büdcəsində 20 Yanvar hadisələrində əlil olmuş şəxslərə müvafiq müavinət nəzərdə tutulur, həmçinin bu ailələrə Prezident təqaüdü verilir.

Ölkəmizdə hər il 20 Yanvar -- Ümumxalq Hüzn günü kimi qeyd edilir və xalqımız igid övladlarının fədakarlığını ehtiramla yad edir. Silsilə tədbirlər – ali və orta məktəblərdə şagirdləri və tələbə gəncləri yanvar hadisələri barədə daha geniş maarifləndirmək məqsədilə dərslər keçilir, faciənin dəhşətlərindən bəhs edilən sərgilər nümayiş etdirilir, faciə qurbanlarının xatirəsinə həsr olunmuş idman turnirləri təşkil olunur. Dünyanın, o cümlədən Avropanın bir çox ölkələrindəki diaspor təşkilatlarımız tərəfindən müxtəlif aksiyalar, anma mərasimləri, xatirə gecələri keçirilir, dünya ictimaiyyətinin diqqəti bu faciəyə yönəldilir.

Müasir beynəlxalq hüququn ən mühüm nailiyyətlərindən biri insan hüquq və azadlıqlarının müdafiəsinin dövlətlərarası əməkdaşlıq səviyyəsinə çıxarılması, onlara beynəlxalq təminatların yaradılmasıdır. Bununla da insan hüquqları dövlətlərin sırf daxili səlahiyyətləri çərçivəsindən çıxaraq beynəlxalq əhəmiyyət kəsb edir.

20 Yanvar 1990-cı il tarixdə dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, habelə insan hüquqlarına dair digər beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur.

Təəssüf hissi ilə qeyd edilməlidir ki, insan hüquqlarının kütləvi surətdə pozulması ilə nəticələnmiş 20 Yanvar faciəsinə bu günə kimi beynəlxalq hüquqi qiymət verilməmişdir. Son vaxtlarda dünyanın müxtəlif yerlərində, o cümlədən Qəzza bölgəsində yüzlərlə günahsız mülki əhalinin, uşaq, qadın, ahıl və əlillərin ölümü, insanların yaşamaq hüququ və sülh hüququnun pozulması ilə nəticələnən silahlı münaqişələr qalmaqdadır.

Təsadüfi deyil ki, Rusiyanın son illərdə Ermənistana təmənnasız olaraq, 1 milyard dollar, bu günlərdə isə 800 milyon dollar dəyərində hərbi texnika, silah və sursat

verməsi bu dövlətin ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, münaqişənin çözülməsi istiqamətində fəaliyyətini kölgədə qoyur və regionda sülhyaratma proseslərinə mənfi təsir göstərir.

Qeyd olunmalıdır ki, kütləvi insan itkisi ilə nəticələnən terror aktları sırasında insanlıq əleyhinə yönəlmiş 20 Yanvar faciəsinin də mahiyyətinə və miqyasına görə xüsusi yeri var. Xalqımız 20 Yanvar faciəsi qurbanlarının o qanlı gecədə milli azadlıq mübarizəsi uğrunda nümayiş etdirdiyi birliyi heç vaxt unutmayacaq, ölkəmizin bu günü və gələcəyi, taleyüklü prioritet məsələlərin həlli, qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, dövlətçiliyimizin möhkəmlənməsi naminə öz milli həmrəyliyini daha da yüksəldəcəkdir.

Ümid edirik ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar haqlı tələblərimizi dəstəkləyəcək, Azərbaycan xalqına qarşı törədilmiş, əvvəlcədən düşünülmüş, antihumanist, antidemokratik, insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması ilə müşayiət olunmuş bu dəhşətli cinayət tezliklə beynəlxalq hüquqi qiymətini alacaq, cinayətkarlar cəzasız qalmayacaqdır.

**Elmira Süleymanova**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

**14 yanvar 2009-cu il**

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, ATƏT-ə, Avropa Şurasına, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.